# BÖYÜK MÜHƏNDİS (ƏSASLI TİKİNTİ VƏ LAYİHƏLƏRİN EKSPERTİZASI ŞÖBƏSİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

**1. Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları:**

- Ekspertizadan keçirilməsi tələb olunan və olunmayan tikinti layihələri;
- Ekspertiza müəssisəsinə təqdim edilən sənədlərin tərkibi və tikinti layihələrinin ekspertizadan keçirilməsi qaydası;
- Tikinti layihələrinə dair ekspertiza müəssisəsinin rəyinin hazırlanması;
- Tikinti layihələrinin ekspertizadan keçirilməsi müddəti;
- Tikinti layihələrinin ekspertizasının maliyyələşdirilməsi.

**2. Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli:**

- Həyata keçirilmə şərtləri;
- Tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər;
- Bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri;
- İnvestisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi qaydası;
- İnvestisiya layihələrinin həyata keçirilməsinin şərtləri və investorlar qarşısında qoyulan tələblər;
- Səlahiyyətli orqanla investor arasında bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri;
- İnvestisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi qaydası;
- Müsabiqənin keçirilməsi qaydası.

**3. "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu:**

- Ümumi müddəalar;
- Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericilik;
- Hidrotexniki qurğuların təhlükəsizliyi üzrə təsnifatı;
- Hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması;
- Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizası;
- Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli.

**4. Müəssisə Standartı "Xəzər Dənizində Neftqazmədən hidrotexniki Qurğularının İstismarı" MS 1669347-13-2009:**

- Stasionar Özüllərin İstismarının Texniki Şərtləri.

**5. Dənizdə Neft və Qaz Quyularının Tikintisinin Vahid Texniki Qaydaları:**

- Quyuların Tikintisinin layihələndirilməsi.

**6. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi**

- Şəhərsalma və tikinti qanunvericiliyi;
- Şəhərsalma və tikinti fəaliyyəti sahəsində dövlət siyasəti;
- Şəhərsalma və tikinti fəaliyyətinin əsas prinsipləri;
- Şəhərsalma və tikintiyə dair normativ sənədlər sistemi;
- Şəhərsalma və tikinti fəaliyyətinin informasiya təminatı sistemi;
- Şəhərsalma fəaliyyəti;
- Ərazi planlaşdırılması;
- Ərazi planlaşdırılması sənədlərinin hazırlanması üzrə icraat;
- Şəhərsalma məqsədilə abadlaşdırma tədbirləri;
- Tikinti fəaliyyəti;
- Tikinti fəaliyyətinin subyektləri;
- Tikinti fəaliyyətinin peşə sahələri;
- Tikinti materialları və məmulatı;
- Tikintiyə dair ümumi tələblər;
- Tikintidə təhlükəsizlik;
- Tikinti obyektləri arasında məsafələr və qonşuluq hüququ;
- Tikintiyə icazənin verilməsi üzrə icraat;
- Tikinti layihələrinin ekspertizası;
- Tikinti işlərinin dayandırılması. Tikinti obyektlərinin sökülməsi;
- Tikintiyə nəzarət;
- Tikinti obyektinin istismarına icazə üzrə icraat.

# ƏDƏBİYYAT:

1. Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları - Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 348 nömrəli Fərmanı ilə təsdiq edilmişdir
2. Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorların "Tik-idarə et-təhvil ver" modeli - Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli Fərmanı ilə təsdiq edilmişdir
3. Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli 109 nömrəli qərarı ilə TƏSDİQ EDİLMİŞDİR
4. Müəssisə Standartı "Xəzər Dənizində Neftqazmədən hidrotexniki Qurğularının İstismarı" MS 1669347-13-2009.Bakı, 2010
5. Dənizdə Neft və Qaz Quyularının Tikintisinin Vahid Texniki Qaydaları, 1998
6. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi. 06 sentyabr 2012
7. DÜİST 25546-82* Yükqaldırıcı kranlar.İş rejimləri
8. DÜİST 12.1.005-88* İşçi zonanın havasına olan ümumi sanitariya-gigiyena tələbləri
9. Bina və qurğuların qrunt əsasları. Layihələndirmə Normaları. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 15 aprel 2015-ci il tarixli 02№-li qərarı ilə təsdiq edilmişdir
10. Tikintinin təşkili AzDTN 1.6-2. Bakı, 2016
11. Yüklər və Təsirlər. Layihələndirmə Normaları. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 15 aprel 2015-ci il tarixli 02№-li qərarı ilə təsdiq edilmişdir
12. AzDTN 1.6-1 Tikinti işlərinin təşkili, aparılması və tikintisi başa çatmış obyektlərin istismara qəbulu qaydaları
13. TN və Q 2.03.01-84 Beton və dəmirbeton konstruksiyalar

**1. Hidrotexniki qurğuların mühafizə zonalarının sərhədləri hansı rəhbər sənəddə qeyd edilir?**
A) Pasportunda
B) Mühafizə zonalarının təlimatında
C) İstismar təlimatında
D) Mühafizə zonalarının layihələrində
E) Hidrotexniki qurğuların baxış jurnalında

**2. Tikinti layihələrinin ekspertizası bağlanmış müqavilənin qüvvəyə mindiyi andan neçə gün müddətində həyata keçirilir?**
A) 5 gün
B) 15 gün
C) 25 gün
D) 20 gün
E) 1 ay

**3. Qurğunun layihə-smeta sənədləri hazırlandığı gündən neçə il müddətində qüvvədə qalır?**
A) 1
B) 5
C) 2
D) 3
E) 4

**4. İstismara yararsız olan dəniz qurğuların sökülməsi hansı sənədə əsasən aparılmalıdır?**
A) Komissiya tərəfindən tərtib edilmiş akta
B) Müəssisə rəhbərinin əmrinə
C) Özül rəhbərinin sərəncamına
D) Texniki tapşırığa
E) İşlərin yerinə yetirilməsi layihəsinə

**5. İstismarı dayandırılmayan yaxud yüksək təhlükə şəraiti olan qurğularda əsaslı təmir işləri aparıldıqda, göstərilən obyektlərdə əsaslı təmir işlərinin aparılması üzrə hansı sənəd işlənib hazırlanmalıdır?**
A) İş planı
B) Tapşırıq-icazə
C) İşə-icazə
D) Layihə
E) Texniki tapşırıq

Nümunə